Təsdiq edirəm

ADMİU-nun rektoru

__________Professor Ceyran Mahmudova

" 12 " " sentyabr " 2025-ci il

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
# Publik Hüquqi Şəxsi
# Təkrar imtahan ödənişlərinin hesablanması
# Qaydası

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin

Elmi Şurasının " 12 " " sentyabr " 2025-ci il

tarixli iclasında təsdiq edilmişdir.

Bakı – 2025

1. Bu "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Təkrar imtahan ödənişlərinin hesablanması" Qaydası (bundan sonra Qayda) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili" Qaydalarına (bundan sonra Qərar) müvafiq hazırlanmışdır.
2. Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə (müvafiq sənədləri təqdim etdikdə) həmin fənn üzrə təkrar imtahan üçün ödənişdən azad edilir.
3. Digər hallarda isə təkrar imtahan üçün ödəniş məbləği qeyd olunan Qərarının 4.3-cü bəndinin tələblərinə uyğun olaraq, müvafiq fənn üçün müəyyən edilmiş məbləğin 25 faizindən çox olmamaq şərtilə ADMİU-nun Elmi Şurası tərəfindən müəyyən edilir.
4. Təkrar imtahanda iştirak üçün tələbə tərəfindən ödəniləcək məbləğ ixtisas (ixtisaslaşma) üzrə illik təhsil haqqının 60-a bölünməsi və alınan nəticənin tələbənin götürdüyü fənnin kredit sayına vurulması yolu ilə hesablanır.

**Məsələn,** fənnin kredit sayı 3, illik təhsil haqqı 2000 manat olduqda hesablanma aşağıdakı kimi aparılır: 2000 (illik təhsilhaqqı) : 60 (tələbənin toplamalı olduğu illik kreditin həcmi) × 3 (fənnə ayrılan kredit sayı) = 100 manat. Müvafiq məbləğin 25 faizi isə 100 : 100 × 25 = 25 manat təşkil edir.

4.1. Dövlət sifarişli təhsil alanlar üçün də təhsil haqqı məbləği ödənişli əsaslarla təhsil alanlara həmin ixttisas üzrə müəyyən edilmiş bərabər tutulur.

5. Tələbənin illik ödənişi universitetin saytında (ödənişli əsaslarla təhsilanlar üçün onun bağlanan müqavilədə) fənnin krediti isə imzaladığı fərdi tədris planında qeyd olunur.